**ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞAL OLUNMUŞ AZƏRBAYCAN TORPAQLARINDA İNSAN HÜQÜQLARININ BƏRPA EDİLMƏSİ**

Sənəd 9599
14 oktyabr 2002-ci il

Məsləhət üzrə təklif
Q.Əliyev cənabları, Hacıyeva xanımları və başqaları tərəfindən təqdim edilmiş

Bu təklif Assambleyada müzakirə olunmamış və sənəd yalnız onun altından qol çəkən şəxslər tərəfindən qeyd edilib

1988-ci ildən etibarən Ermənistan Dövləti qonşu Azərbaycana qarşı işğalçılıq müharibəsini aparır ki, Dağlıq Qarabağ vilayətini öz torpaqlarına əlavə etsin. Bu müharibə azərbaycan xalqına dəhşətli zərbə vurdu. Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ və onu əhatə edən 7 rayonu daxil etməklə Azərbaycanın 20%-ə yaxın torpaqlarını işğal etdi. Silahlı hücum nəticəsində 20,000-dən artıq azərbaycanlı öldürülmüş, 20,000-dən artıq - yaralanmış, 50,000-ə yaxın - oğurlanmış, 5,000 - əsir götürülmüş və bir milyona yaxın azərbaycanlı - məcburi köçkün olmuşlar. 877 şəhər və kənddə aparılmış müharibənin nəticəsində minlərlə sənaye və kənd təsərrüfatı müəssisələrinin, məktəblərin, xəstəxanaların, tarixi və mədəniyyət abidələrinin məhv edildi, yandırıldı və yaxud talan edildi.

Ermənistan Dövləti tərəfindən aparılan işğalçı müharibəsi bu dövlətin bir sıra qanunvericilik aktları ilə təsdiq olunubdur. Beləliklə, 2 dekabr 1988-ci il tarixində Ermənistan Sovet Sosialist Respublikasının Ali Şurası (Parlamenti) "Ermənistan SSR-nin Dağlıq Qarabağ ilə birləşdirilməsi"-nə dair qərar qəbul etdi (Vedomosti Verxovnoqo Soveta Armyanskoqo SSR, 1989-cu il, nömrə 23, bənd 144-ə baxın) və həmin qərarda Azərbaycanın hissəsi kimi tanınmış ərazi Ermənistana "birləşdirilmişdi". Bundan əlavə, 23 avqust 1991-ci il tarixində qəbul edilmiş Ermənistan Dövlət Müstəqilliyi Bəyannaməsində Dağlıq Qarabağ Ermənistan ərazisinin bir hissəsi kimi bəyan olunmuşdur (Vedomosti Verxovnoqo Soveta Arrmyanskoy SSR, 1991-ci il, nömrə 23, bənd 448, 449-a baxın). Həmin bəyannamənin ali qanunvericilik gücü və əhəmiyyəti hazırki Ermənistan Konstitusiyasının Preambulasında da təsdiq edilibdir.

Qeyd olunmalıdır ki, indiki zamana qədər BMT Təhlükəsizlik Şurası həmin münaqişə ilə bağlı dörd Qərar qəbul etmiş (Qərar 822, 853, 874 və 884) (bütün qərarlar 1993-cü ildə qəbul edilmişdilər) və yuxarıda qeyd olunmuş qərarlara görə Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad olunması tələbi yerinə yetirilməmişdir.

İnsan qanunları Azərbaycanın işğal edilmiş torpaqlarında tamamilə pozulmuşdur.

Ermənistanın yuxarıda qeyd olunmuş hərəkətləri Avropada sülh, təhlükəsizlik və sabitliyə bir hədə kimi qiymətləndirərək, Assambleya belə hesab edir ki, Ermənistan silahlı qüvvələrin Azərbaycan ərazilərinə daxil olması, Azərbaycan Respublikasının Dağlıq Qarabağ vilayəti və onun ətrafında yerləşən 7 regionun işğal edilməsi hücum aktı kimi müəyyən edilir və Ermənistanın qarşısına tələb qoyulubdur ki, Azərbaycan Respublikasının bütün işğal edilmiş əraziləri dərhal və qeyd-şərtsiz azad olunsun.

Assambleya məsləhət görür ki, Nazirlər Kabineti monitorinqi başlasın və Ermənistan Dövlətinin qarşısına Avropa Şurasının Nizamnaməsinə müvafiq olaraq hər hansı sanksiyaların qoyulması mümkünlüyünü müzakirə etsin.

İmza edən şəxslər: [1]
Aliyev G, Azerbaijan, EDG
Hajiyeva, Azerbaijan, EPP
Abbasov, Azerbaijan, EDG
Akgonenc, Turkey, EDG
Aliyev I, Azerbaijan, EDG
Arzilli, San Marino, EPP
Clerfayt, Belgium, LDR
Glesenev, Luxembourg, EPP
Gligoroski, "the former Yugoslav Republic of Macedonia", EPP
Goulet, France, EDG
Gulek, Turkey, SOC
Huseynov A, Azerbaijan, EDG
Huseynov R, Azerbaijan, LDR
Ibrahimov, Azerbaijan, LDR
Juri, Slovenia, SOC
Kalkan, Turkey EDG
Landsbergis, Lithuania, EPP
Mintas-Hodak, Croatia,
Saglam, Turkey, EPP
Seyidov, Azerbaijan, EDG

Shakhtakhtinskaya, Azerbaijan, EDG
Skarbovik, Norway, EPP
Skrabalo, Croatia, LDR
Vakilov, Azerbaijan, EDG

[1] SOG: Socialist Group
EPP: Group of the European People's Party
EDG: European Democratic Group
LDR : Liberal, Democratic and Reformers' Group
UEL: Group of the Unified European Left
NR: not registered in a group